*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/50 saylı Qərarı ilə təsdiq edilmişdir.*

# Seçkilərdə (referendumda) Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında seçkilərin təşkili haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində (cəzaçəkmə müəssisələrində) və istintaq təcridxanalarında seçkilərin (referendumun) təşkili qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.4-cü, 46.6-cı, 46.7-ci, 46.9-cu, 47.5-ci, 47.5-1-ci maddələri və bu Təlimatla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Seçkilərdə (referendumda) (bundan sonra – seçkilərdə) Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında müvafiq seçki komissiyaları tərəfindən seçkilər təşkil edilir.

1.2. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində seçkilər yalnız Azərbaycan Respublikasının Prezident seçkilərində və referendumda təşkil edilir.

1.3. Seçkilərin təşkili zamanı seçicilər haqqında məlumatları müvafiq qurumların rəhbərləri və ya buna səlahiyyəti olan digər şəxslər (gəmi kapitanı, neft və qaz hasilatı platformalarının rəhbərləri, baş həkim, istintaq təcrid-xanalarının, cəzaçəkmə müəssisələrinin rəisi və s.) təqdim edir və bu məlumatların düzgünlüyünə, tamlığına və vaxtında verilməsinə görə onlar qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyət daşıyırlar.

1.4. Göstərilən yerlərdə olan seçicilər haqqında təqdim edilən məlumat əsasında tərtib edilən seçicilər siyahısı məntəqə seçki komissiyası tərəfindən yoxlanılaraq səsvermə gününə azı 5 gün qalmış təsdiq edilir.

## 2. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə və Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında seçkilərin təşkili qaydaları

2.1. Səsvermə günü Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə və Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında seçicilərin sayı 50-dən artıq olduqda, müvafiq dairə seçki komissiyası tərəfindən səsvermə gününə azı 50 gün qalmış seçki məntəqələri yaradılır. Bu məqsədlə dairə seçki komissiyası Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin rəhbərlərinə müraciət edərək seçicilərin sayını dəqiqləşdirir.

2.2. Bu Təlimatın 2.1-ci bəndində göstərilən yerlərdə müstəsna hallarda seçki məntəqələri səsvermə gününə azı 5 gün qalmış yaradılır və səsvermənin təşkili müvafiq qurumların rəhbərlərinə və ya buna səlahiyyəti olan digər şəxslərə (gəmi kapitanı, neft və qaz hasilatı platformalarının rəhbərləri və s.) tapşırılır. Belə seçki məntəqələri yerləşdikləri seçki dairəsinin tərkibinə daxil olur.

2.3. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə, neft və qaz hasilatı platformalarına seçki sənədlərinin çatdırılmasını Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin rəhbərliyi təmin etməlidir. Göstərilən yerlərdə səsvermənin nəticələri haqqında məlumatların ötürülməsi başqa üsullarla mümkün olmadıqda, radioötürücü və digər rabitə vasitələri ilə də çatdırıla bilər.

## 3. Seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda və istirahət evlərində) seçkilərin təşkili qaydaları

3.1. Seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda, sanatoriyalarda və istirahət evlərində) bu Təlimatın 2.1-ci və 2.2-ci bəndlərində göstərilən əsaslarla seçki məntəqələri yaradılır. Bu məqsədlə müvafiq dairə seçki komissiyası seçicilərin müvəqqəti olduqları yerlərin rəhbərlərinə müraciət edərək seçicilərin sayını dəqiqləşdirir.

3.2. Səsvermə günü xəstəxanalarda, sanatoriyalarda və istirahət evlərində olan seçicilər orada yaradılan seçki məntəqələrində şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənəd əsasında seçici siyahılarına daxil edilirlər. Səsvermə günü həmin yerlərdə seçki məntəqəsi yaradılmayıbsa, belə seçicilər göstərilən müəssisələrin rəhbərlərinin onların səsverməsi üçün müəyyən edilmiş məntəqə seçki komissiyasına təqdim etdikləri məlumatlar əsasında həmin seçki məntəqələrinin seçici siyahılarına daxil edilirlər. Həmin məlumatda şəxsiyyət vəsiqələrinin və ya onları əvəz edən sənədlərin tam göstəriciləri əks etdirilməlidir.

## 4. İstintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində seçkilərin təşkili qaydaları

4.1. İstintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərin və digər seçicilərin) siyahıları həmin müəssisələrin rəhbərlərinin seçicilər haqqında məlumatı əsasında səsvermə gününə azı 20 gün qalmış məntəqə seçki komissiyası tərəfindən dəqiqləşdirilir.

4.2. İstintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində seçki məntəqəsi yaradılmayıbsa, həmin müəssisə rəhbərləri seçicilər haqqında məlumatları toplayıb dəqiqləşdirir, səsvermə gününə azı 35 gün qalmış göstərilən yerlərdə saxlanılan seçicilərin səs verməsi üçün müvafiq məntəqə seçki komissiyasına təqdim edirlər.

4.3. Barələrində həbs qətimkan tədbiri seçilmiş və inzibati qaydada saxlanılan vətəndaşlar məntəqə seçki komissiyaları tərəfindən ayrıca seçici siyahılarına daxil edilirlər. Bu cür məlumatlar (şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin tam göstəriciləri qeyd edilməklə) səsvermə gününə ən azı 2 gün qalmış vətəndaşın həbsi haqqında qərar çıxarmış müvafiq məhkəmələr və ya vətəndaşın inzibati qaydada saxlanılması haqqında qərar qəbul etmiş müvafiq icra hakimiyyəti orqanı tərəfindən məntəqə seçki komissiyalarına təqdim edilir.

4.4. Barələrində həbs qətimkan tədbiri seçilmiş və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmayan şəxslər istintaq təcridxanaları rəhbərliyinin məntəqə seçki komissiyasına təqdim etdiyi məlumat əsasında seçici siyahılarına daxil edilirlər.

4.5. Azadlıqdan məhrumetmə yerlərində, istintaq təcridxanalarında və müvəqqəti saxlama yerlərində seçki məntəqəsi yaradılmadıqda, habelə həmin yerlərdə olan seçicilər yazılı ərizə ilə müraciət etdikdə göstərilən yerlərdə səsvermənin keçirilməsini yaxın ərazidə yerləşən müvafiq məntəqə seçki komissiyası təmin edir.

4.6. Bu Təlimatın 4.5-ci bəndində göstərilən seçicilərin səs verməsi onlar haqqında seçicilər siyahısına daxil edilmək üçün məlumat verilmiş müvafiq məntəqə seçki komissiyası tərəfindən daşınan seçki qutusu ilə Seçki Məcəlləsinin 105-ci maddəsində nəzərdə tutulmuş qaydada təşkil edilir.

4.7. İstintaq təcridxanalarında saxlanılan, habelə cəzaçəkmə müəssisələrində cəza çəkən səsvermə hüququ olan şəxslər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi Siyahıda göstərilən və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş şəxsiyyət vəsiqəsini əvəz edən sənədlə səs verirlər (həmin sənədin forması Mərkəzi Seçki Komissiyası ilə razılaşdırmaqla Ədliyyə Nazirliyi tərəfindən təsdiq olunur).

## 5. Yekun müddəalar

5.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 12 iyun 2003-cü il tarixli 11/71 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft platformasında və neft hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində, istintaq təcridxanalarında seçkilərin təşkili haqqında” Təlimat, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 8 yanvar 2009-cu il tarixli 1/4-3 saylı Qərarı ilə təsdiq edilmiş “Referendum zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft platformasında və neft hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında səsvermənin təşkili haqqında” Təlimat qüvvədən düşmüş hesab edilir.